Ədəbiyyat qəzeti

9 yanvar / 2021

Əliş ƏVƏZ

## *Qeyrət qandan üstündü*

*Sarı Aşığın gorgah yeri*
*Güləbird kəndinin erməni işğalından*
*azad olunması sədası gəldi.*

Əzizim, Güləbirdə,
Dolan gəl Güləbirdə.
Yüz il Yaxşısız Aşıq
Bilməzdim gülə bir də.

Vəsfin ellər oxuyur,
Dağlar, çöllər oxuyur.
Coşub İlhamlı könlüm
Şirin dillər oxuyur.

Şahım ər oğlu ərdi,
Hər əməli hünərdi.
Tədbirli ol, Sultanım,
Yağılar hiyləgərdi.

Əsgər balam öc aldı,
Xeyir şərdən bac aldı.
İllər xəcili ruhum,
Sevin, başın ucaldı!

Ürək candan üstündü,
Vətən ondan üstündü.
Rahat uyu, şəhidim,
Qeyrət qandan üstündü!

## *Qalib Azərbaycan əsgərinə*

Boyuna qurban, Azərbaycan əsgəri!
Vardım, vardım...
Qarabağın dağına çatdım!
Sayəndə yardım qara zindanı,
Yardım, yardım...
Üzümün ağına çatdım!

Öpdüm Şuşamın həsrət gözündən,
Gəldim, gəldim...
Qalamın özünə çatdım!
Xarıbülbülümün göz yaşını
Sildim, sildim...
Cıdır düzünə çatdım!

Qaysaq bağlamışdı təşnə dodağım,
İçdim, içdim...
İsa bulağına çatdım!
Keçılməz zirvələri, bürcləri
Keçdim, keçdim...
Başımın ucalığına çatdım!